# Separasiya prosesi və neftin nəqlə hazırlanması

| | |
|---|---|
| Fənn: | Separasiya prosesi və neftin nəqlə hazırlanması |
| Səviyyə: | Baza, ümumi əsaslar |
| Müddət: | 5 gün |
| Təlimatçı: | Ağamoğlan Cəfərov |

Bu intensiv beş günlük baza kursları neftin separasiya olunması və nəqlə hazırlanmasının əsaslarını özündə cəmləyir.
Mövzular, neftin separasiya olunması və nəqlə hazırlanmasının əsaslarını, inkişaf tarixini, separasiya prosesinin texnika, texnologiya və avadanlıq dəstlərini əhatə edir.
Kursun iştirakçıları, separasiya prosesi və neftin nəqlə hazırlanması əsaslarının zəruri biliklərini öyrənib əldə edəcəklər.

**Nəzərdə tutulur:**

Mühəndislər, layihəçilər və texnik-operatorlar, texniki şərtlərin işlənilməsində və neftin separasiya olunması və nəqlə hazırlanması obyektlərinin istismarında, layihələndirilməsində və tikintisində fəal iştirak edənlər üçün nəzərdə tutulur.

**Öyrəniləcək material:**

- Quyu məhsullarının yığılması separasiya olunması və nəqlə hazırlanması sistemləri inkişaf tarixi haqqında qısa məlumat;
- Separasiya sistemində istifadə olunan avadanlıqlar təyinatı və onların iş prinsipləri;
- Separasiya sistemi üçün avadanlıqların təyin edilməsi və seçilməsi qaydaları;
- Separasiya sistemində texnoloji boru kəmərlərinin hesablanması qaydaları;
- Separasiya sisteminin təhlükəsiz istismarı.

**Kursun tərkibi:**

- Neftin nəqlə hazırlanmasının zərurətləri;
- Neft emusiyalarının yaranması;
- Neft emusiyalarının əsas xassələri;
- Neftdən suyun ayrılmasınıın əsas üsulları;
- Neftin sudan mexaniki üsulla təmizlənməsi;
- Termik üsulla neftin sudan təmizlənməsi;
- Kimyəvi üsulla neftin sudan təmizlənməsi;
- Termo-kimyəvi deemulsiasiya;
- Neftin stabilləşdirilməsi (qazsızlaşdırılması);

- Separasiya sistemlərində istifadə olunan avadanlıqlar;
- Separatorlar və onların konstruktiv xüsusiyyətləri;
- İki fazlı separatorlar;
- Üç fazlı separatorlar;
- Neftin hazırlanması qurğularının texnoloji sxemləri;
- Neft çənləri parkı.

**Tədrisi aparan təlimatçı haqqında:**

Ağamoglan Əhrasib oğlu Cəfərov,M.Əzizbəyov adına Azərbaycan Neft və kimya İnstitutunun “Neft və qaz mədənlərinin maşın və avadanlıqları”(neft-mexanika) ixtisasını bitirmişdir. 27 ildən artıq neftqaz sənayesində elmi-tədqiqat, layihələndirmə və neft-qaz avadanlıqlarının, neft və qaz yataqlarının abadlaşdırılması obyektlərinin layihələndiriməsində, tikintisinə müəllif nəzarətinin aparılması istiqamətində təcrübəyə malikdir.
Əmək fəaliyyəti, 12 il “XKB Neftmaş” (Elmi tədqiqat və konstruktor bürosu); 2000-ci ildən bu günə qədər «Neftqazelmitədqiqatlayihə» İnstitutunda çalışır, mühəndis vəzifəsindən başlayaraq 6 ildən artıqdır ki, “Neft və qaz yataqlarının abadlaşdırılması şöbəsinə başçılıq edir.
“Neftqazelmitədqiqatlayihə” institutunun “Neft və qaz yataqlarınınabadlaşdırılması” şöbəsinin rəisi. SOCAR-ın tabeçiliyində olan müəssisələrdə yeni qazılan neft və qaz quyularının abadlaşdırılması və yenidən tikintisi layihələndə layihələrin baş mühəndisi kimi iştirak edib. “Neftqazelmitədqiqatlayihə” institutunundan əvvəl, SSRİ-nin neft-mədən avadanlıqlarının layihələndirilməsi sahəsində aparıcı Xüsusi konstruktor bürolarından olan “XKB Neftmaş”-da konstruktor vəzifəsində işləyib.
İstehsalat təcrübəsi ilə əlaqədar xarici ölkələrdə əmək fəaliyyəti illər üzrə:
Ukrayna (Kiyev) 2011,Fransa(Paris) 2015.
Əmək fəaliyyəti ilə iştirak etdiyi xarici şirkətlər: Caspian engineering. BP Azərbaycan, McDermott, AzACG, EnertoCon,KBR, PV engineering və b.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu
AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a